*“Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olunan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur”.*

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 fevral 2015-ci il № 13 (1929) Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Fransa Senatının üzvü, keçmiş nazir Jan-Mari Bokelin başçılıq etdiyi Fransanın Alzas regionunun nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası və beynəlxalq əməkdaşlıq sahələrində, eləcə də ölkələrimizin regionları arasında əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Bakıda “Cənub” qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşündə iştirak edib.***

***Prezident İlham Əliyev Bakıda bu görüşün keçirilməsi təşəbbüsünə verdikləri dəstəyə görə iştirakçı ölkələrin rəhbərlərinə təşəkkürünü bildirdi. Azərbaycan Prezidenti bu görüşün olduqca münasib vaxtda - "Cənub" qaz dəhlizi layihəsinin praktiki olaraq həyata keçirilməsi ilində baş tutmasının mühüm əhəmiyyətini vurğuladı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hoxstaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, enerji, nəqliyyat və digər layihələrin həyata keçirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı və bu istiqamətdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bir qrup hərbi qulluqçusunun "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi və hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam vermişdir.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da ATƏT-in Minsk Qrupunun həmsədrləri Pyer Andryönu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anjey Kasprşiki qəbul edib.***

***Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

**AzərTAc-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# “Bizim əsas gücümüz əsgərlərimizin vətənpərvərliyidir”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu günlərdə Münhen Təhlükəsizlik Konfransında əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldərək qeyd edib ki, "bu gün Ukrayna hadisələrinə görə dünya dövlətləri Rusiyaya təsir göstərirsə, nəyə görə bu sanksiyalar Ermənistana qarşı tətbiq olunmur?" Bu tədbirdə Ermənistanın nümayəndəsi guya təmas xəttində bizim tərəfimizdən atəşkəsin pozulması faktını irəli sürüb. Bu məsələyə aydınlıq gətirən dövlətimizin başçısı bildirib ki, "əslində həmişə günahı bizim üstümüzə atmaq Ermənistan tərəfinin taktikasıdır. Onlar bizim torpaqlarımızı işğal ediblər, beynəlxalq hüquq normalarını pozublar, amma bütün bunlara baxmayaraq bizi günahlandırırlar. Sual oluna bilər ki, erməni əsgərinin Ağdamda nə işi var? Əgər o, ölmək istəmirsə, Ağdama getməsin". Göründüyü kimi, Azərbaycanın dövlət başçısının cavabı düşmənə bir mesajdır. Əslində dünyada ikili standartlara yer verən nüfuzlu dövlətlərin rəsmiləri də uzun müddət ərzində ərazilərimizin 20 faizinin işğalda qalması faktına biganə qalmamalı və münaqişənin ədalətli həllinə səy göstərməlidirlər. Müasir dövrdə Ermənistanla müqayisədə ölkəmizin beynəlxalq aləm üçün əhəmiyyəti daha önəmlidir. Çünki Azərbaycan müstəqil bir dövlət olaraq heç kimdən asılı olmayan ardıcıl siyasət yürüdür, həmçinin mühüm geosiyasi əhəmiyyət kəsb edən iqtisadi layihələrin iştirakçısıdır. Əgər dövlətimiz hərbi təcavüzə məruz qalmasaydı, şübhəsiz, belə layihələrin sayı daha çox olardı.

Azərbaycan dövlətinin sülh siyasətinə önəm verdiyini bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, biz qan tökülməsini istəmirik, münaqişənin dinc yolla həllinə tərəfdarıq, amma bir şərtlə, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun.

Bu yaxınlarda cəbhə bölgəsində Silahlı Qüvvələrimizin irimiqyaslı təlimində isə Müdafiə naziri general-polkovnik Zakir Həsənov birmənalı olaraq qeyd etdi ki, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan Ordusu istənilən vaxt üzərinə düşən əsas vəzifəni yerinə yetirməyə - torpaqlarımızı son qarışına kimi işğaldan azad etməyə hazırdır.

Bu gün düşmənlə təmas xəttində Vətənə övlad borcunu yerinə yetirən əsgərlərin döyüş ruhu yüksəkdir, hər bir döyüşçüdə qələbə əzmi vardır. Əgər işğalçı Ermənistanın ordusunda qeyri-nizamnamə halları, cinayət hadisələri baş alıb gedirsə, bundan tam fərqli olaraq bizim ordumuzda şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və əhval-ruhiyyəsi ürəkaçandır. Çətin və mürəkkəb şəraitdə xidmət edən əsgərlərimiz Vətənin keşiyində ayıq-sayıq dayanırlar. Azərbaycan əsgəri yaxşı bilir ki, apardığı mübarizə haqq işidir, yəni özgə torpaqlarında gözümüz yoxdur, bizim məqsədimiz yalnız işğalda olan torpaqlarımızı azad etmək və yurd-yuvasından didərgin salınmış insanları əzəli məskənlərinə qaytarmaqdır.

Azərbaycan Ordusunda şəxsi heyətin yüksək hazırlığını təmin edən əsas amillərdən biri də dövlətin öz əsgərinə olan diqqət və qayğısıdır. Artıq bir sıra bölgələrdə müasir əsgər yataqxanaları, yeməkxanalar, camaşırxana və hamam kompleksləri tikilərək şəxsi heyətin ixtiyarına verilib. Döyüşçülərin əşya və ərzaq təminatına da ciddi önəm verilir, onlar üçün müxtəlif çeşidli milli yeməklər hazırlanır. Bir sözlə, dövlətin və ordu rəhbərliyinin əsas diqqəti Vətənimizin keşiyində dayanan şəxsi heyətin hərtərəfli təminatına yönəlib. Bu isə hərbi qulluqçularda dövlətə və xalqa inam hissini artırmaqla yanaşı, onların öz vəzifə borcuna məsuliyyət hissini də gücləndirir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

## Sloveniyanın xarici işlər naziri:

# BMT-nin Dağlıq Qarabağ münaqişəsinin həllinə dair qətnamələrinə əməl olunmalıdır

***Azərbaycan və Sloveniyanın əməkdaşlıq üçün böyük potensialı var. Xalqlarımız arasında çox yaxın əlaqələr mövcuddur. Əməkdaşlığımız yüksək səviyyədə davam edir və bunu dəstəkləmək lazımdır.***

Bu sözləri AzərTAc-a müsahibəsində Sloveniyanın xarici işlər naziri Karl Erjaveç ölkələrimizin ikitərəfli əlaqələrindən danışarkən deyib.

Nazir Azərbaycana böyük nümayəndə heyəti ilə səfər etməyi planlaşdırdığını bildirib. "Düşünürəm ki, bizim hələ istifadə olunmayan potensialımız var. Ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi təqribən 15 milyon ABŞ dollarıdır və bizim imkanları əks etdirmir. Göstəriciləri artıra bilərik. Energetika, əczaçılıq, avtomobil sənayesi və digər sahələrdə əməkdaşlıq üçün imkanlarımız genişdir", - deyə K.Erjaveç vurğulayıb.

Xarici siyasət idarəsinin rəhbəri bu il Azərbaycan-Sloveniya Hökumətlərarası İqtisadi Komissiyasının yaradılacağını da qeyd edib. O, bu istiqamətdə danışıqlar aparıldığını və yaradılacaq strukturun ikitərəfli əlaqələri lazımi səviyyəyə qaldırmağa xidmət edəcəyini söyləyib.

Nazirin dediyinə görə, mədəniyyət və təhsil sahələrində müqavilələrin imzalanması üçün də danışıqlar aparılıb. O, Azərbaycanın təhsil naziri Mikayıl Cabbarovun Sloveniyaya səfərinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

K.Erjaveç siyasi əlaqələrin hazırkı vəziyyətinin Sloveniya dövlətini qane etdiyini deyərək 2011-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Sloveniyada əfsanəvi Mixaylonun muzey kompleksinin açılış mərasimində iştirakını xatırladıb. "Bu bir daha xalqlarımızın bir-birinə yaxınlığını göstərir. Biz, həmçinin Azərbaycanda səfirlik açmağı düşünürük. Təbii ki, bu bizim büdcəmizdən asılıdır. Səfirliyin açılması ilə bağlı büdcədən maliyyə vəsaitinin ayrılmasına çalışacağıq. İnanıram ki, 2016-cı ildə Sloveniyanın Azərbaycandakı səfirliyi fəaliyyətə başlayacaq", - deyə nazir bildirib.

Azərbaycanın Avropa İttifaqının vacib tərəfdaşı olduğunu vurğulayan xarici siyasət idarəsinin rəhbəri Aİ-nin üzvü kimi Sloveniyanın da enerji layihələrində iştirak etməkdə maraqlı olduğunu deyib. Onun fikrincə, Azərbaycan ilə Avropa İttifaqı arasında ticarət dövriyyəsinin daha da intensivləşdirilməsi vacibdir.

Sloveniyanın Azərbaycanda yeni açılan fəxri konsulluğunun fəaliyyətinə toxunan K.Erjaveç bu qurumun iki ölkə arasındakı əlaqələrin daha da inkişaf etdirilməsinə töhfə verdiyini diqqətə çatdırıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də münasibət bildirən nazir bu probleminin sülh yolu ilə həllinin tərəfdarı olduqlarını deyib: "ATƏT-in Minsk Qrupunun səyləri vacibdir. Bu münaqişənin həlli ilə bağlı BMT-nin illər öncə qəbul etdiyi qətnamələrə əməl olunmalıdır. Azərbaycan regionda sabitliyin tərəfdarıdır. Ukraynada baş verən hadisələrin şahidiyik. Düşünürəm ki, dünyada sülhməramlı siyasət davam etdirilməlidir. Biz görürük ki, Azərbaycan regionda sülhün təminatçısıdır. Ona görə də vurğulamaq istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll edilməlidir".

# Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı sülh sazişi üzərində işə başlama üzrə fəaliyyət qrafiki müzakirə olunub

***Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan ATƏT-in Minsk Qrupunun həmsədrləri Pyer Andryö (Fransa), İqor Popov (Rusiya), Ceyms Uorlik (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anjey Kasprşik ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparılıb.

Elmar Məmmədyarov atəşkəsin pozulması hallarından danışarkən ilk növbədə, beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tələblərinə uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasının həmsədrlər tərəfindən tələb edilməsinin vacibliyini vurğulayıb.

Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasının münaqişənin həlli və etimadın yaradılmasında irəliyə doğru mühüm addım olacağını qeyd edən nazir sülh sazişinin layihəsi üzərində ciddi danışıqlara başlamağın zəruri olduğunu söyləyib, Azərbaycanın buna hazırlığını ifadə edib.

Görüşdə həmsədrlərlə münaqişənin həlli ilə bağlı sülh sazişi üzərində işə başlama üzrə fəaliyyət qrafiki müzakirə olunub.

# Müdafiə naziri hərbi şəhərciklərdə aparılan əsaslı tikinti işlərini yoxlayıb

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, hərbi şəhərciklərin kompleks şəkildə tikilərək hərbi qulluqçuların istifadəsinə verilməsi istiqamətində hərbi qarnizonlarda aparılan işlər davam etdirilir.***

Fevralın 14-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov yeni tikilən hərbi şəhərciklərdəki inşa işlərinin gedişatını yoxlayıblar.



Nazirliyin rəhbərliyi əvvəlcə hərbi şəhərciklərdən birinin ərazisində qısa müddətdə yeni tikilərək istifadəyə verilən müasir tipli qazanxana və geniş sıra meydanı ilə tanış olub. Burada inşası davam etdirilən yeməkxana, əsgər yataqxanası və başqa inzibati obyektlərdə də işlərin tez bir zamanda sona çatdırılması gözlənilir.

Yeni salınan digər hərbi şəhərciyə baş çəkən Müdafiə naziri ərazinin perspektiv tikinti-quruculuq planına baxıb, inşa işlərini aparan heyətə müvafiq tapşırıq və tövsiyələrini verib.

Hərbi şəhərciklərdə zəruri infrastrukturla yanaşı, müasir tələblərə cavab verən, bütün məişət şəraiti ilə təmin edilmiş, həmçinin ailəli hərbi qulluqçuların ehtiyacları da nəzərə alınmaqla geniş mənzillər, eləcə də gizirlər üçün yataqxana kompleksi də inşa edilir.

Bu hərbi şəhərciklərdə işlərin 2015-ci ilin yay ayları ərzində başa çatdırılması planlaşdırılır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri ATƏT-in Minsk Qrupunun həmsədrlərini qəbul edib



Fevralın 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Pyer Andryu (Fransa), Ceyms Uorlik (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşiki qəbul edib.

Görüş zamanı qonaqlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qoşunların təmas xəttində mövcud vəziyyətlə bağlı öz təəssüratlarını bildiriblər.

Müdafiə naziri qonaqlara regiondakı vəziyyət, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etməsi, qaçqın və məcburi köçkünlərin mövcud problemləri, o cümlədən beynəlxalq təşkilatların münaqişənin həlli istiqamətində atdıqları addımların nəticəsiz qalması barədə fikirlərini bildirib.

Sonda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri Serbiya Respublikasının ölkəmizdəki səfirini qəbul edib



***Fevralın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Neboyşa Rodiçi qəbul edib.***

Müdafiə naziri regiondakı hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini, bunun nəticəsində sülh prosesinin yubanmasını və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərməsini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə Serbiya arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsində qarşılıqlı marağın olması barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri Çexiya Respublikasının ölkəmizdəki səfirini qəbul edib



***Fevralın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Çexiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Vitezslav Pivonkanı qəbul edib.***

Müdafiə naziri səfirə regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib, hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə olunub.

Görüşdə Çexiya Respublikasının ölkəmizdəki hərbi attaşesi polkovnik Yurji Padour iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ordu xalqın dayağıdır

## Ağdam rayonunda hərbi vətənpərvərlik tədbiri keçirilib

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə əsasən, hərbi hissələr şəhər-rayon icra hakimiyyətləri ilə birgə hərbi vətənpərvərlik tədbirlərini keçirməyi artıq ənənəvi hala çeviriblər. Bu yaxınlarda belə tədbirlərdən biri də "Ordu xalqın dayağıdır" mövzusunda Ağdamda keçirilib. Üç gün davam edən tədbir "N" hərbi hissəsi və Ağdam rayon İcra Hakimiyyəti tərəfindən təşkil edilmişdi.***

Hərbi vətənpərvərlik tədbirlərinin keçirilməsini zəruri hesab edən polkovnik Həbib Məmmədov ordu ilə xalqın birliyi mövzusuna toxunaraq dedi ki, orduda xidmət edən hər bir əsgər xalqımızın övladıdır. Onlar Vətənimizin gecə-gündüz keşiyini çəkən, müdafiəsində ayıq-sayıq dayanan Azərbaycan vətəndaşlarıdır. Bu birliyin təməli möhkəmdir. Çünki onları eyni amal, eyni məqsəd birləşdirir - Azərbaycanımızın ərazi bütövlüyünü təmin etmək və torpaqlarımızı erməni qəsbkarlarından azad etmək. Bax budur, xalqla ordunun birliyini möhkəmləndirən əsas amil.

Tədbirin birinci günündə hərbi hissələrin bir qrup zabit heyəti, döyüş hazırlığında və xidmətdə fərqlənən 30 nəfər hərbi qulluqçu, Ağdam rayon İcra Hakimiyyətinin rəhbərliyi, rayon hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələri ümummilli lider Heydər Əliyevin abidəsi önünə əklil qoyublar.

Sonra tədbir iştirakçıları Ağdam rayonunda Heydər Əliyev mərkəzini ziyarət edib, zəngin ekspozisiya ilə tanış olaraq ürək sözlərini xatirə kitabına qeyd ediblər.

Ağdam rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədovun hərbçilərlə görüşü daha maraqlı, yaddaqalan oldu. O bildirdi ki, gözəl Qarabağımızın ürəyi sayılan qədim Ağdamın əsrlərdən bu günümüzə gəlib çatan qəhrəmanlıq tarixi var. Qarabağ müharibəsində göstərdikləri mərdlik və şücaətə görə 17 ağdamlı döyüşçü ən yüksək mükafata - Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Onlarla həmvətənimiz orden və medallarla mükafatlandırılıb. Bu gün də ağdamlılar Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin əmrini gözləyir. Onlar işğalda olan torpaqları azad etməyə hər an hazırdırlar. Bu gün rayonumuzun işğaldan qorunmuş ərazisində məhz xalqımızın zəkalı, müdrik rəhbəri İlham Əliyevin zəhməti sayəsində yeni bir Ağdam qurulmaqdadır. Artıq Ağdamın 188 min nəfər əhalisinin 90 mini doğma torpaqlarımızda məskunlaşıb. Minlərlə insan düşmənlə üzbəüz olan kəndlərə dönüb, torpağa bağlanıb. Bu insanlar öz doğma yurdunun bir kəsik torpağında qorxusuz olaraq qurub-yaradır, cəsarətlə, sabaha inamla yaşayırlar. Bu inamın kökü isə dövlətimizin günbəgün artan hərbi və iqtisadi qüdrəti ilə bağlıdır.



Tədbirin birinci günündə həmçinin, xidmətdə fərqlənən hərbçilərlə Quzanlı qəsəbəsi, Sultanbut və köçkünlər üçün inşa edilmiş 18 saylı tam orta məktəblərdə şagirdlərin görüşləri təşkil olunub.

"Ordu xalqın dayağıdır" mövzusunda keçirilən hərbi vətənpərvərlik tədbirinin ikinci günü Ağdam rayon Mədəniyyət evində davam etdirilib. Tədbir ulu öndərimizin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin xatirəsinin yad edilməsi ilə başlanıb. Məruzə üçün söz alan hərbi birliyin zabiti Həbib Məmmədov qeyd edib ki, yurdlarına bağlı olan ağdamlılar Vətəni sevməyi, onun yolunda mübarizə aparmağı bacarırlar. Onların əsl vətənpərvərlik əməlləri Vətənin daş yaddaşına çevrilmişdir. Və bu daş yaddaş dünya, xalqımız yaşadıqca Azərbaycanın kişilik, qeyrət, qəhrəmanlıq rəmzi kimi xatırlanacaqdır. Bildiyimiz kimi, Ağdam rayonunun döyüş mövqelərinə çox yaxın kəndləri düşmənin müxtəlif çaplı silahlarından atəşə məruz qalır. Lakin düşmənin təxribat xarakterli hərəkətləri ağdamlıları qorxutmur, çünki onlar Azərbaycan Ordusunun peşəkarlığına, döyüş qabiliyyətinə inanır və hər an düşmənə layiqli cavab verməyə hazır olduğuna tam əmindirlər.

Azərbaycan Ordusunun hərbi qulluqçuları Elvin Xəlilov, İlkin Muradov, Zeynal Həsənov və başqalarının çıxışları tədbir iştirakçılarında yüksək fəxarət hissi oyadıb. İlkin Muradovun çıxışının sonunda söylədiyi "hava sərhədlərimizi pozmağa cəhd edən düşmənin döyüş helikopterini məhv etməklə qəhrəman Azərbaycan xalqının və onun ordusunun qüdrətini düşmənə və dünyaya açıqlaya bildim, artıq bütün dünya bilir ki, xalqımız məğlubedilməz və qorxmazdır" fikirləri zalda gurultulu alqışlarla qarşılanıb.

- Bugünkü tədbir xalqla ordunun sıx birliyini bir daha göstərdi. Biz yumruq kimi nə qədər bir olsaq, o qədər də güclü, yenilməz olarıq. Yetişməkdə olan gənc nəslə səslənərək demək istəyirəm ki, Vətənə məhəbbət və düşmənə nifrət hissi ilə yaşamalı, Ali Baş Komandanın əmri ilə əzəli və əbədi torpaqlarımızı yağı düşməndən azad etməyə hazır olmalıyıq, - deyən hərbi qulluqçu Zeynal Həsənovun çıxışı Azərbaycan gəncliyinə bir çağırışdır.



Tədbir iştirakçıları Ağdam rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədovun, rayon təhsil şöbəsinin müdir müavini Rahil Allahverdiyevin, rayon gənclər və idman idarəsinin rəisi Elnur Əhmədovun və Qarabağ müharibəsi veteranı, "Azərbaycan Bayrağı" ordenli jurnalist Baxşeyiş Abbasoğlunun çıxışlarını da böyük maraqla dinləyiblər.

Sonra hərbi hissə komandanlığı və rayon İcra Hakimiyyətinin rəhbərliyi tərəfindən xidmətdə fərqlənən hərbi qulluqçulara və təhsildə uğurlar əldə edən şagirdlərə qiymətli hədiyyələr təqdim olunub. Tədbirin ikinci günü Ağdam rayon Mədəniyyət evinin konsert proqramı ilə yekunlaşıb.

Üçüncü gün isə tədbir ön xətdə yerləşən hərbi hissədə "Açıq qapı" gününün keçirilməsi ilə davam edib. Rayonun Mahrızlı, Rzalı, Xındırıstan, Zəngişalı və Paşabəyli kənd orta məktəblərinin şagirdləri təlim nöqtələrində atıcı silah və döyüş texnikaları ilə yaxından tanış olub, onların taktiki-texniki xüsusiyyətləri barədə geniş, ətraflı məlumatlar öyrəniblər.





Hərbi hissənin heyət komandirləri - çavuşlardan Rövşən Səfərov, Sənan Nəcəfov, əsgər Mövlan Şirəliyev silahlardan istifadə qaydaları haqqında məktəblilərə həvəslə danışıblar. Məktəblilərdən Emin İmanov və Aqil Abdullayev isə hərbçi peşəsinə böyük maraq göstərdiklərini bildiriblər.

Məktəblilər gələcək hərbi vərdişlərə yiyələnmələri məqsədilə əsgərlərin yaşayış və məişət şəraiti ilə tanış olublar.

Ağdamda üç gün davam edən "Ordu xalqın dayağıdır" vətənpərvərlik tədbiri özfəaliyyət dərnəklərinin konsert proqramı və əsgərlərlə şagirdlərin birgə nahar etmələri ilə sona çatıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Döyüş hazırlığı

# Qətiyyətli topçular

**Cəbhə bölgəsindəki "N" hərbi hissəsinin artilleriya dvizionunda mayor Ruslan Vahabovla ilk dəfə idi görüşürdüm. Yaşca gənc, amma hərbi təcrübə baxımından yetkin olan zabitin fəaliyyəti göz önündədi. Hələ qərargahda olanda onun bacarıqlı və öz işinin öhdəsindən layiqincə gələn artilleriyaçı olduğunu mənə söyləmişdilər. Artilleriya bölməsindəki yüksək nizam-intizam, döyüş əhval-ruhiyyəsi bir daha eşitdiklərimə aydınlıq gətirdi. Komandirin çalışqanlığı, üzərinə düşən vəzifənin məsuliyyətini dərindən hiss etməsi qazanılan uğurların əsas səbəbidir.**



Ruslan Vahabov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Özünün dediyinə görə, hərbçi, artilleriyaçı olmaq onun yeniyetmə yaşlarından istəyi olub. O istək, o arzudur Ruslanı pillə-pillə ucaldan. Zamanında hərbi bilikləri mükəmməl mənimsəyib, döyüş təcrübəsi qazanmaq üçün yorulmadan çöl-səhra təlimlərində tər töküb. Əsl komandirə xas xüsusiyyətləri özündə əxz edə bilib. Deyirlər, çəkilən zəhmət heç vaxt yerdə qalmır, gec də olsa haqq öz yerini tapır. Qeyd edək ki, Ruslanın da zəhməti yerdə qalmayıb. O, xidmətinin dəyərləndirildiyinə görə komandanlığa minnətdar olduğunu deyir. Bundan sonra da yuxarı rəislərin etimadını doğruldacağını bildirir. Onunla söhbət zamanı top heyətlərinin döyüşə hazırlığı ilə bağlı fikirlərini öyrənirəm. Zabit R.Vahabov deyir:

- Yeni tədris ilinin başlanğıcındayıq. Dərslər, təlimlər təsdiq olunmuş plana əsasən keçirilir. Heyətlər vaxtlı-vaxtında poliqonda olur, döyüş atışları həyata keçirilir. Onlar əvvəlcə məhv ediləcək hədəflərin yerini dəqiq müəyyən edirlər. Sonra atəş açırlar. Heyət üzvləri bilik və bacarıqlarını əsirgəmirlər. Hazırda tabelikdəki bütün bölmələr qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirməyə qadirdirlər.

Çalışqanlıq, peşəkarlıq olan yerdə, söz yox ki, döyüş hazırlığı da yüksək olacaq. Yaxşı yadımdadı, ordumuz yeni yaranarkən artilleriya üzrə bacarıqlı kadrlara ehtiyac duyulurdu. Qarabağ müharibəsi dövründə bunun acı nəticələrini çox görmüşük. İndi isə nəinki artilleriya üzrə, bütün ixtisaslarda kifayət qədər peşəkar hərbçilərimiz var. Onlar bu gün hərbi xidmətə gələn əsgərlərə təyin olunduqları döyüş vəzifələrinə uyğun hərbi bilikləri aşılayırlar.

Məşğələ yerinə zabit Əli Əsgərovla gəldim. Əsgərlər bu gün də ənənəyə sadiq olaraq döyüş hazırlıqlarını artırırlar. Məşğələ yerində baş leytenant Şahid Vəliyev bizi qarşıladı. Öyrəndim ki, Şahid artilleriya ixtisasını mükəmməl bilən və yetərincə döyüş təcrübəsinə malik zabitlərdəndir. O, tabeliyində olan heyət üzvlərinin məşğələsinə rəhbərlik edirdi. Keçdiyi mövzuya uyğun əsgərlərə suallar verir, bəzi məqamlara aydınlıq gətirirdi. Məqsədi əsgərlərə doğru, dürüst hərbi biliklər vermək idi.

Gədəbəyli top komandiri kiçik çavuş İlqar Quliyev döyüş hazırlığına görə silahdaşlarına nümunədir. O, burada üç ildən artıqdır ki, xidmət edir. Daim əsgərlərinin döyüşə hazırlığı onu düşündürür. Məhz bunun nəticəsidir ki, onun komandiri olduğu top heyəti hərbi hissədə öncüllər sırasındadır. Heyət üzvlərinin hər biri respublikamızın müxtəlif bölgəsindəndir. Qazaxlı Ramil Alıyev və Səməd İsmayılov, laçınlı Kənan Qarasov, qaxlı Aqşin Süleymanov, ağstafalı Səvan Həsənov öz ixtisaslarını dərindən öyrənmiş əsgərlərdir. Goranboylu sürücü Vüsal Qurbanov da silahdaşlarının rəğbətini qazanan döyüşçülərdəndir. Heyət üzvlərinin başlıca məqsədi erməni işğalında qalan yurd yerlərimizi azad etməkdir. Bunun üçün onlar əsgəri borclarını vicdanla, şərəflə yerinə yetirməyi qarşılarına məqsəd qoyublar.

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**



## Ölkəmizdəki xarici hərbi attaşelər xüsusi təyinatlı təhsil müəssisələrini ziyarət ediblər

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri üçün Silahlı Qüvvələrin Hərbi Akademiyasına, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə və C.Naxçıvanski adına Hərbi Liseyə tanışlıq ziyarəti təşkil olunub.***

Ziyarət zamanı tədris müəssisələri barədə brifinqlər, müəssisələrin maddi-tədris bazaları ilə tanışlıq həyata keçirilib.

14 dövləti təmsil edən hərbi attaşelər ziyarətin yüksək səviyyədə təşkili ilə əlaqədar Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürlərini bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Silahlı Qüvvələrin Baş Klinik Hospitalında daha bir unikal cərrahi əməliyyat həyata keçirilib

***Daha əvvəl aorta-koronar şuntlama əməliyyatı olunan 71 yaşlı Feyzulla Rzayevə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Ürək-Damar Mərkəzində təxirəsalınmaz yardım göstərilib.***



Mərkəzin rəisi doktor Anar Əmrahın rəhbərliyi ilə heyət tərəfindən "Qarın aortasının yırtılmış nəhəng anevrizması" qarın boşluğu açılmadan və anesteziya olunmadan qapalı üsulla xəstənin aortasına və hər iki qalça arteriyasına stend yerləşdirilərək yırtılmış damar bərpa olunub.

Əməliyyatı uğurla başa çatdırılan F.Rzayev evinə yazılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## Mövzu: 26 Fevral - Xocalı faciəsi

**Məqsəd:** ***Şəxsi heyəti tariximizin acı səhifəsi olan "Xocalı faciəsi" ilə tanış etmək, faciənin başvermə səbəblərini, nəticələrini və dərslərini aydınlaşdırmaq, şəxsi heyəti düşmənə nifrət, qisas ruhunda tərbiyə etmək.***

**SUALLAR:**

**1. Xocalı faciəsinin törədilməsi ərəfəsində Azərbaycanda və Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağda ictimai-siyasi vəziyyət.**

**2. 26 Fevral faciəsi. Xocalının qəhrəmancasına müdafiəsi. Xocalının qisasını Azərbaycan əsgəri almalıdır.**

### *Xocalı fəciəsinin törədilməsi ərəfəsində Azərbaycanda və Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağda ictimai-siyasi vəziyyət*

Bu mövzu ermənilərin "Böyük Ermənistan dövləti" yaratmaq məqsədi daşıyan cəfəng planlarını həyata keçirmək üçün XX əsrin axırlarında azərbaycanlılara qarşı törətdikləri ən qanlı cinayətlərdən biri, azərbaycanlıların kütləvi soyqırımı - Xocalı faciəsi haqqındadır.

1989-1990-cı illərdə keçmiş Sovet İttifaqının bir çox respublikalarında Silahlı Qüvvələrin yaradılması tələbi ilə mitinqlər keçirildi. Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) erməni separatçıları yaranmış vəziyyətdən bacarıqla istifadə edərək, "azərbaycanlılar Qarabağın erməni əhalisinə təhlükə yaradırlar" bəhanəsi ilə DQMV-dən hərbi xidmətə çağırılan erməni gənclərinin SSRİ Silahlı Qüvvələrinin o zaman vilayətdə yerləşən hərbi hissələrində, Stepanakertdəki (indiki Xankəndi) 366-cı alayda, Martunidəki (indiki Xocavənd) sərhəd dəstəsində xidmət keçmələrinə nail oldular. Beləliklə, Azərbaycan ərazisində (keçmiş DQMV-də) Sovet ordusunun bazasında Azərbaycanın ərazi bütövlüyünə təhlükə yaradan erməni silahlı dəstələrinin yaradılmasının ilkin mərhələsi başlandı.

1991-ci ilin noyabrında SSRİ rəhbərliyi Daxili Qoşunların yerləşdikləri respublikaların rəhbərliyinə tabe edilməsi haqqında qərar qəbul etdi. Ancaq Azərbaycanda yerləşən Daxili Qoşun hissələrinə rabitə qurğularını sökmək, rabitə avadanlıqlarını, silah və texnikanı respublikadan çıxarmaq tapşırığı verilmişdi. Buna baxmayaraq, Qarabağın dağlıq hissəsindən 1991-ci ilin dekabrında çıxan qoşun hissələri silah və texnikalarını erməni silahlı dəstələrinə qoyub getdilər. 1991-ci il hadisələri Dağlıq Qarabağ ətrafında gedən proseslərin mahiyyətini açdı. Azərbaycan Ermənistan tərəfindən açıq-aşkar hərbi təcavüz faktı ilə üz-üzə qaldı.

1992-ci ildə Azərbaycanda daxili ictimai-siyasi vəziyyət daha da gərginləşdi. Rusiyapərəst siyasət yeridən Azərbaycan prezidenti Ayaz Mütəllibov respublikanın MDB çərçivəsində Moskvanın maraqları orbitində qalmasına çalışır və Milli Ordunun yaradılmasını ləngidirdi. 1992-ci ilin başlanğıcında Azərbaycan Silahlı Qüvvələri Milli Ordunun tam silahlanmamış iki taborundan, (təxminən 300 nəfər) DİN, MTN, XTMD (xüsusi təyinatlı milis dəstəsi) bölmələrindən, yerli özünümüdafiə qüvvələrindən və müxtəlif partiyaların könüllü dəstələrindən (ümumi sayı 2000 nəfərə qədər) ibarət idi. Bu şəraitdə erməni silahlı dəstələrinin şəxsi heyəti sayca azərbaycanlılardan çox olmasa da, erməni dəstələri daha yaxşı təşkil olunmuş, silahlanmış və təlim keçmişdilər. Həm də MDB-nin Silahlı Qüvvələrinin 366-cı alayı onların tərəfində idi. 366-cı alayın 129 zabit və proporşikindən 49-u milliyyətcə erməni idi. Alayın 2-ci taboruna isə erməni mayor Seyran Ohanyan komandirlik edirdi.

Artıq 1992-ci ilin fevralında Dağlıq Qarabağda xarici ölkələrin köməyi ilə silahlanmış, Azərbaycanın ərazilərində müharibə aparmağa qadir erməni ordu bölmələri var idi. Bu dövrdən etibarən ermənilər Dağlıq Qarabağın tərkibində və ondan kənarda azərbaycanlılar yaşayan iri yaşayış məntəqələrinin işğalı planının həyata keçirilməsinə başladılar. Ermənistanla quru yolu ilə əlaqələri olmayan Qarabağ erməniləri ancaq hava yolu ilə kömək ala bilərdilər. Ona görə də ermənilər Qarabağda tələsik yeni vertolyot meydançaları hazırlayırdılar. Gorus-Xankəndi, Gorus-Hadrut reysləri təşkil olunurdu. Vəziyyətə tam nəzarət etmək, eləcə də bütün istiqamətlərdə maneəsiz hərəkət etmək və Dağlıq Qarabağda olan yeganə aeroportu ələ keçirmək üçün ermənilər Xankəndi ilə Əsgəran arasında yerləşən, qədim zamanlardan azərbaycanlıların yaşadıqları Xocalı şəhərini ələ keçirməli idilər.

### *26 Fevral faciəsi. Xocalının qəhrəmancasına müdafiəsi. Xocalının qisasını Azərbaycan əsgəri almalıdır*

Xocalı Qarabağ hadisələri başlanmazdan əvvəl, içindən Ağdam-Şuşa və Əsgəran-Xankəndi yolları keçən bir qəsəbə idi. 1988-ci ilə olan məlumata görə, qəsəbədə 2135 adam yaşayırdı. Dağlıq Qarabağın yeganə təyyarə meydanı burada idi. 1988-ci ildə Ermənistandan qovulmuş azərbaycanlıların və Fərqanədən qaçmağa məcbur olan Ahıska türklərinin bir hissəsi Xocalıda məskunlaşdılar. 1991-ci ilin ortalarında artıq burada 6300 insan yaşayırdı. Həmin ilin axırlarında ermənilərin şəhərə hücumlarından sonra əhalinin bir hissəsi şəhəri tərk etdi. Respublika MTN-in məlumatlarına və digər sənədlərə görə, faciəli fevral hadisələri ərəfəsində şəhərdə 3 mindən bir qədər çox adam qalmışdı. 1991-ci ilin oktyabrından Xocalı ilə avtomobil əlaqəsi kəsildi. 1992-ci ilin yanvarın 2-dən şəhərə elektrik enerjisinin verilməsi dayandırıldı. Azərbaycanla ancaq hava yolu ilə, vertolyotlar vasitəsi ilə əlaqə saxlanırdı. Axırıncı mülki vertolyot yanvarın 28-də gəldi. Son dəfə fevralın 3-də hərbi vertolyot ərzaq və yanacaq gətirdi. Ermənilər tərəfindən edilən aramsız hücumlara, Azərbaycan rəhbərliyinin Xocalının taleyinə biganə münasibətinə baxmayaraq, əhali öz tarixi yurdunu tərk etmək istəmirdi. Şəhər mühasirədə yaşayır, ancaq təslim olmurdu.

Şəhəri Xocalı aeroportunun komendantı, milis kapitanı Əlif Hacıyevin komandası altında birləşən, ixtiyarında ancaq bir artilleriya qurğusu, 3 zirehli transportyor olan, yalnız atıcı silahlarla silahlanmış, Milli Ordunun, XTMD-nin yerli özünümüdafiə dəstəsinin döyüşçülərindən ibarət 160 nəfərlik qüvvə qoruyurdu. Buna baxmayaraq, şəhərin müdafiəçiləri ermənilərin bütün hücumlarını qətiyyətlə və mərdliklə dəf edirdilər. Məhz buna görə də ermənilər Azərbaycan kəndlərini işğal edərkən əsasən piyada bölmələri ilə kifayətlənirdilərsə, Xocalıya son hücum zamanı (fevralın 25-dən 26-na keçən gecə) ilk dəfə artilleriyadan və zirehli texnikadan geniş və planlı istifadə olundu.

1992-ci il fevralın 26-sı Azərbaycan tarixinin ən qanlı səhifələrindən biridir. Fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri MDB-nin 366-cı alayının köməyi ilə Xocalı şəhərini işğal edərək dağıtdılar və yerli əhaliyə qarşı əsl genosid aktı törətdilər. Erməni yaraqlıları 366-cı alayın zabit və əsgərlərinin köməyi ilə şəhəri tanklarla və digər zirehli texnika ilə mühasirəyə alıb, bu qədim diyarın dinc əhalisini kütləvi şəkildə qırmağa başladılar. Xocalının müdafiəçiləri sayca qat-qat üstün, yaxşı silahlanmış, tankların və zirehli texnikanın dəstəyi ilə hücuma keçən düşmənin qarşısını almaq üçün fədakarlıqla döyüşdülər və əhalinin şəhərdən çıxmasına şərait yaratdılar. Şəhərin müdafiəçiləri bu qeyri-bərabər döyüşdə öz mövqelərindən geri çəkilmədilər, onlardan çoxu əsl qəhrəman kimi döyüşdə həlak oldu. Milis kapitanı Əlif Hacıyev Xocalı aeroportunun müdafiəsində son nəfəsinə kimi vuruşdu. Milli Ordunun zabiti baş leytenant Tofiq Hüseynov əhalini şəhərdən çıxardıqdan sonra yenə döyüşə girdi. Patronu qurtaran döyüşçünü ayağından yaralayan ermənilər ona təslim olmağı təklif etdilər, Tofiq sonuncu qumbara ilə özünü öldürür, ancaq düşmənə təslim olmur. Səhərə qədər gedən döyüşdə onlarla döyüşçümüz qəhrəmancasına həlak oldu. Bir neçə nəfər yaralı halda əsir düşdü. Ermənilər yaralı döyüşçü Faiq Əlməmmədova nə qədər işgəncə versələr də, "Qarabağ sizindir" sözlərini dedirdə bilmədilər. Faiq son nəfəsində "Qarabağ bizimdir, Xocalı da bizim olaraq qalacaq. Ermənilərin nəinki Qarabağda, heç yerdə vətənləri yoxdur" sözlərini demişdi. Araz adlı döyüşçünün sərt və məğrur cavabına görə dərisini diri soysalar da, igid döyüşçü dediyindən dönmədi. Təəssüf ki, döyüşçülərimizin qanı bahasına şəhərdən çıxmağa müvəffəq olan dinc əhalinin çox az hissəsi xilas ola bildi. Şəhərdən çıxanlar ermənilərin pusqularına düşdülər. Bu dəhşətli gecədə 613 nəfər öldürüldü, 1000 nəfərdən çox insan yaralandı, 1275 nəfər ermənilərə əsir düşdü. Hətta həlak olanların meyitləri də təhqirə məruz qaldı.

> “Öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaqdır...”
>
> Heydər ƏLİYEV
> Azərbaycan xalqının ümummilli lideri

Xocalıda qanlı cinayət törədilməsində 366-cı alayın iştirakı dünya ictimaiyyətinə məlum olduqdan sonra MDB ordu komandanlığı həmin alayın cinayətlərini ört-basdır etmək üçün onu münaqişə zonasından, sonra isə Azərbaycandan təcili çıxarmağa məcbur oldu. Lakin alayın silah və texnikasının çox hissəsi ermənilərə saxlanıldı. Seyran Ohanyanın komandiri olduğu 2-ci tabor isə demək olar ki, tam heyətdə Xankəndidə qaldı.

Münaqişə zonasında cərəyan edən sonrakı hadisələr göstərdi ki, Xocalının işğalı ilə Ermənistan Azərbaycana qarşı genişmiqyaslı müharibənin ilkin mərhələsinə qədəm qoydu. Xocalının işğalı onsuz da gərgin olan ictimai-siyasi vəziyyəti daha da gərginləşdirdi. Prezident Ayaz Mütəllibov istefaya getməyə məcbur oldu. Azərbaycan Xalq Cəbhəsinin dövləti idarə məsələlərinə müdaxilə təsiri artdı. Bu isə cəmiyyətdə xaosa səbəb oldu. Yaranmış vəziyyətdən bacarıqla istifadə edən ermənilər 1992-ci ildə Dağlıq Qarabağda azərbaycanlıların son dayağı - böyük strateji əhəmiyyəti olan Şuşa şəhərini işğal etdilər. Bir neçə gün sonra isə mayın 17-də Laçını işğal edən erməni silahlı dəstələri Ermənistan ilə Dağlıq Qarabağı quru yolu ilə birləşdirən, eni 20 km-ə qədər olan dəhliz yaratmağa nail oldular.

Bu günlər Xocalı faciəsinin 23-cü ildönümü tamam olur. Xocalı faciəsində həlak olanların xatirəsi hər bir Azərbaycan vətəndaşı üçün əziz olmalıdır. Hər il fevralın 26-da bu dəhşətli faciəni yad edən hər bir azərbaycanlı erməni vəhşiliyini unutmamalıdır. Lakin biz Xocalı faciəsini tarixi hadisə kimi yadda saxlamaqla kifayətlənməməliyik. Xocalı faciəsi azərbaycanlıların qəlbində qisasçılıq hisslərini alovlandırmalıdır. Biz yaddan çıxartmamalıyıq ki, o müdhiş gecədə həlak olan vətəndaşlarımızın, qocaların, qadınların, uşaqların əsir düşmüş, alçaldıcı təhqirlərə məruz qalmış, namusu tapdalanmış qız-gəlinlərin qisası hələ alınmayıb. Ümummilli liderimiz Heydər Əliyevin dediyi "Azərbaycan gənci erməni gəncindən aciz, gücsüz, cəsarətsiz deyil, əksinə, azərbaycanlılar daha qüdrətli, güclü və cəsarətlidirlər. Ancaq bu insanı, bu gənci müharibə etməyə, silahdan istifadə etməyə öyrətmək lazımdır" sözləri bir daha sübut edir ki, azərbaycanlılar, hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan gənci düşməndən qisas almağa qadirdir. Düşməndən qisası ancaq döyüş meydanında almaq olar. Bu gün Azərbaycan xalqının başına gətirilən bir sıra oyunlara, faciələrə siyasi qiymət verilir. Bu olayların günahkarları xalqın mühakiməsinə çıxarılır. Bu gün Xocalı qəhrəmanlarına, Xocalı müdafiəçilərinə qiymət verilir. Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli fərmanı ilə Xocalı vətəndaşlarından 4-nə (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib, 15 nəfəri (8-i ölümündən sonra) "Azərbaycan Bayrağı Ordeni" ilə, 57 nəfəri (44-ü ölümündən sonra) "İgidliyə görə" medalı ilə təltif olunublar.

Həmin sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsi hər il fevralın 26-sı saat 17:00-da bütün respublikada sükut dəqiqəsi ilə yad edilir.

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda xalqımıza, millətimizə qarşı aparılan soyqırımla, törədilən cinayətlərlə bağlı xüsusi kartotekalar tərtib olunub. Burada cinayətləri sübuta yetirilmiş, ermənilərdən ibarət böyük terrorçu qrupun üzvlərinin hər biri haqqında kifayət qədər material var.

Xocalı soyqırımı ilə bağlı 200 nəfərdən çox cinayətkar (erməni və rus millətindən olan) haqqında dəyərli fakt və sənədlər yığılıb. Əldə olunan videolentlər, sənədlər, dindirmə protokolları, fotoşəkillər, ifadələr... təkzibolunmaz fakt kimi saxlanılır. Çunki Azərbaycan xalqına qarşı törədilən soyqırımla bağlı istintaq hələ bitməyib.

Tarix separatçıların liderləri olan Zori Balayanı, Arkadi Qukasyanı, Robert Köçəryanı, Serj Sarkisyanı, Seyran Ohanyanı... ifadələri alınmaq üçün "həqiqət kürsüsü"nə "dəvət edəcək".

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti zamanı söylədiyi "Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur" sözləri Azərbaycan hökuməti, hər bir Azərbaycan vətəndaşı qarşısında Xocalı faciəsinin dünya ictimaiyyəti tərəfindən bir soyqırımı kimi qəbul olunması üçün öz səylərini əsirgəməmək vəzifəsini qoymuşdur. İllərdir bu sahədə atılan addımlar 8 may 2008-ci il tarixində, Şuşanın işğalının ildönümü günü Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyeva tərəfindən irəli sürülmüş "Xocalıya Ədalət!" kampaniyasının yaradılması təşəbbüsü ilə yeni, daha geniş müstəviyə qədəm qoydu. Hal-hazırda faciənin mənəvi, siyasi və hüquqi müstəvidə tanınmasına yönəlmiş bu kampaniya dünyanın 40-dan çox ölkəsində uğurla həyata keçirilir. Xocalı həqiqətlərinin dünyada tanınması üçün dövlətimiz tərəfindən önəmli addımlar atılır. Bu sahədə xüsusilə Heydər Əliyev Fondu və bu fondun prezidenti Mehriban xanım Əliyevanın əməyini qeyd etmək lazımdır. Məhz bu əməyin nəticəsidir ki, bu gün Pakistan, Meksika, Çexiya, Kolumbiya, Bosniya və Hersoqovina kimi dövlətlər, ABŞ-ın bir neçə ştatı (7 ştat) Xocalı hadisələrini soyqırımı kimi tanımış, İslam Əməkdaşlıq Təşkilatı bu faciəyə siyasi qiymət verərək soyqırımın tanınması üçün üzv dövlətlərə müraciət ünvanlamışdır. Faciənin 23-cü ildönümü ərəfəsində xaricdə yaşayan Azərbaycan diasporlarının və "Heydər Əliyev Fondu"nun dəstəyi ilə dünyanın bir sıra ölkələrində Xocalı həqiqətlərini əks etdirən fotosərgilər nümayiş etdirilmiş, bukletlər, məqalələr nəşr olunmuş, ANS şirkətlər qrupunun ərsəyə gətirdiyi "Xoca" filminin nümayişi təşkil olunmuşdur.

İndi Azərbaycan torpaqlarının 20%-i düşmən tərəfindən işğal edilib. Həmin torpaqların düşməndən azad edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında məqsədyönlü daxili və xarici siyasət aparılır. Bu siyasət Azərbaycanın ərazi bütövlüyünün bərpasına yönəldilib. Cənab Prezident öz çıxışlarında dəfələrlə qeyd edib ki, dövlətçiliyimizi qorumaq, torpaqlarımızı düşməndən azad etmək üçün Azərbaycanın güclü ordusu olmalıdır.

"Xocalı soyqırımı XX əsrin ən dəhşətli, ən böyük cinayətlərindən biri idi…

Dağlıq Qarabağda Azərbaycan bayrağı dalğalanacaqdır… Hazırda işğalda olan bütün ərazilər dədə-baba torpaqlarımızdır. Bizim vətəndaşlar bu torpaqlara qayıtmalıdırlar və qayıdacaqlar. Əsrlər boyu o torpaqlarda biz yaşamışıq, biz də yaşayacağıq". Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o, öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş hazırlığı dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlamalıdır. Xocalı faciəsində, eləcə də ermənilər tərəfindən törədilmiş digər cinayətlərdə həlak olmuş, təhqir olunmuş soydaşlarımızın qisası ancaq Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə alınacaqdır.

**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

Hərbi and

# "Vətənə şərəfli xidmət borcumuzdur"

## Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində təntənəli andiçmə mərasimləri keçirilib

***Müqəddəs ana torpağımız uğrunda Vətənimizin cəngavər övladları yadelli düşmənlərə qarşı barışmaz mübarizə aparıblar. Ona görə də əbəs yerə deməyiblər ki, el igidləri ilə tanınar. Bu igidlər döyüşlərə atılan zaman başları üzərində hər zaman Vətən bayrağı olub. Məhz bunun nəticəsidir ki, min illərdir bayraq xalqımız üçün milli şərəf və qürur rəmzinə çevrilib.***



Bayraq Vətənə sədaqətin rəmzidir. Çünki Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılan hər bir vətəndaş hərbi and içərkən başının üzərində üçrəngli, ay-ulduzlu bayraq olur. Öz əsgər yoldaşlarının sırasında və komandirləri qarşısında gənc əsgər Vətənə, öz xalqına sədaqətli olacağı barədə təntənəli surətdə and içir. Hərbi andda Vətənin silahlı müdafiəçisi olan övladlarına xalqın verdiyi tələblər, umduğu mənəvi keyfiyyətlər öz əksini tapıb. Belə keyfiyyətlər Vətəni etibarlı müdafiə etmək və döyüşdə qalib gəlmək üçün ən vacib şərtlərdəndir.

Hərbi anda sadiq olmaq hər bir əsgər üçün şərəf, namus və vicdan məsələsidir. Deməli, başı üzərində şərəf və namus rəmzi olan Azərbaycan bayrağı dalğalanan bu xalqın hər oğlu bir igiddir, qəhrəmandır.

Əlahiddə Ümumqoşun Ordusunda hərbi xidmətə yeni çağırılmış əsgərlərin hərbi andiçmə mərasimi hərbi hissənin döyüş bayrağının gətirilməsi ilə başlandı. Dövlət himni səsləndirildi və gənc əsgərlərin hərbi andiçmə mərasimi açıq elan olundu.

Hərbi and içən əsgərlər təntənəli surətdə vəd etdilər ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaq, bundan ötrü qanlarını və canlarını əsirgəməyəcəklər.

Gənc əsgərlərin andiçmə mərasimində çıxış edən zabitlər, valideynlər və ictimaiyyət nümayəndələri hərbi andı qəbul edən əsgərləri təbrik edərək onlara xidmətlərində uğurlar arzuladılar.

Naxçıvan Dövlət Filarmoniyası solistlərinin və xüsusi təyinatlı bölmələrin çıxışları ilə tədbir başa çatdı.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**



***Müdafiə Nazirliyinin bütün hərbi hissələrində, qoşun növlərində olduğu kimi, Hərbi Dəniz Qüvvələrində də andiçmə mərasimi öz təntənəsi ilə yadda qalıb. Əvvəlcə rəsmi ritualların icra edilməsi ilə başlanan tədbir zabit və əsgərlərin, həmçinin valideynlərin çıxışları ilə davam etdirilib.***

Öncə gənc hərbi dənizçiləri əlamətdar hadisə münasibətilə salamlayan birinci dərəcəli kapitan Natiq Bağırov Azərbaycanda qəhrəmanlığı ilə layiqli ənənələrin yaradıcısı olan igid dənizçilərdən, onların şərəfli döyüş yolundan danışıb.

Yüksək rütbəli dənizçi çıxışına davam edərək hərbi andın əhəmiyyətindən danışıb. Qeyd edib ki, hərbi and hərbi qulluqçudan dövlətimizin və xalqımızın mənafeyini, onun suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün hərb işini vicdanla öyrənməyi, xalqımızın hərbi ənənələrini layiqincə davam etdirməyi və hər an Vətənin müdafiəsinə hazır olmağı tələb edir.

Sonra gənc matrosların valideynləri adından danışan A.Abdullayeva gənclərin ordu sıralarında nümunəvi xidmət edərək Vətənimizin hərbi qüdrətinin möhkəmlənməsinə dəyərli töhfə verdiklərini bildirib. O, əminliklə qeyd edib ki, gənc hərbi dənizçilər də komandirlərinin əmr və tapşırıqlarına əməl edərək hərb işini dərindən öyrənəcək və dəniz sularında ölkəmizin milli mənafeyinin qorunması üçün var qüvvələrini əsirgəməyəcəklər.

Gənc matros Samir Cavadlı isə yoldaşları adından söz verib ki, hərbi andın tələblərinə sadiq qalaraq Vətənə, xalqa və dövlətçiliyə şərəflə xidmət edəcəklər.

**"Azərbaycan Ordusu"**

***"N" hərbi hissəsində də gənc əsgərlərin təntənəli andiçmə mərasimi keçirilib. Mərasimdə yüksək rütbəli hərbi qulluqçular, qonaqlar, həmçinin əsgər valideynləri iştirak ediblər.***

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Hərbi orkestrin ifası ilə döyüş bayrağı sıra meydanına gətirildikdən sonra andiçmə tədbirini giriş sözü ilə açan polkovnik Münasib Babayev gənc əsgərləri əlamətdər gün münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırıb. "Səngərdə dayanan hər bir əsgər güclü ordunun fərqindədir. Və bu güvənc əsgərimizə əzmli və dəyanətli olmağa kömək edir. Hərbi xidmət keçmək Azərbaycanın vətənpərvər oğullarının şərəf borcudur. Vətənimiz Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün müdafiəsinə hər an hazır olmalıyıq. Hərbi andın mahiyyəti də məhz bundan ibarətdir", - deyə polkovnik bildirib.

Gənc əsgərlər sıra meydanında yerləşdirilən silahların ətrafına nizami addımlarla yaxınlaşaraq, bir əli silahda, bir əli isə əsgər yoldaşında Vətənə sədaqət andı içiblər.



Komandanlıq adından polkovnik Qiyas Abbasovun imzası ilə gənc əsgərlərə ünvanlanan təbrikdə hər bir əsgərin Vətənə layiqli övlad olacağına inam ifadə edilib. Xüsusi olaraq vurğulanıb ki, ümummilli lider Heydər Əliyev məktəbinin davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Silahlı Qüvvələrin daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərdiyi qayğı və diqqət sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırır: "Bu gün hər bir vətəndaşın təhlükəsizliyi, hər qarış torpağımızın müqəddəratı məhz sizin nümunəvi xidmətinizdən asılıdır".

Ordu sıralarına yeni daxil olan gənclərimizin Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacaqları, dövlətçiliyimizin qorunması, inkişafı və tərəqqisi naminə əllərindən gələni əsirgəməyəcəkləri də təbrikdə əks olunub.

Valideyn Sevinc Salmanova övladının şərəfli bir vəzifəni - Vətənin xidmətində durmağı üzərinə götürdüyü üçün iftixar hissi duyduğunu deyərək əsgər anası oğlu ilə fəxr etdiyini bildirib.

Tədbirdə çıxış edənlər ölkə rəhbərliyinin ordu quruculuğu sahəsində həyata keçirdiyi məqsədyönlü tədbirlərdən, Hərbi andın şərəf və məsuliyyətindən, eləcə də Silahlı Qüvvələrdə həyata keçirilən önəmli islahatların əhəmiyyətindən söhbət açıblar.

Mərasim şəxsi heyətin tribuna önündən təntənəli keçidi ilə başa çatıb.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

***Gənc əsgərlər hərbi andı qəbul etmək üçün təyin olunmuş yerə gələrək, əllərini üçrəngli bayrağımıza, döyüş silahlarına qoyaraq, Vətənə, xalqa sədaqətlə xidmət edəcəklərinə və ölkəmizin ərazi bütövlüyünü qoruyacaqlarına and içdilər.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik məktubu oxundu.

Əlamətdar günə həsr olunan tədbirdə çıxış edən polkovnik Gəray Bağırov bildirdi ki, bu gün ordunun qarşısında duran ən mühüm vəzifə torpaqlarımızın işğalçılardan azad edilməsidir. Bu istiqamətdə dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev və Müdafiə Nazirliyi tərəfindən məqsədyönlü siyasət davam etdirilir. "İnanırıq ki, bu gün ordumuzun sıralarına daxil olan gənclər də Vətənə layiq əsgər olacaq, peşəkar hərbi qulluqçu kimi formalaşacaqlar".

Polkovnik Elşad Əbilov da birliyin komandanlığı adından gənc əsgərləri təbrik edərək xidmətdə onlara uğurlar arzuladı, həmçinin Vətənə layiq, qorxmaz və cəsarətli oğullar böyütdükləri üçün valideynlərə minnətdarlıq etdi.

Gənc əsgərlər adından çıxış edən Bakı şəhəri, Xətai rayonundan hərbi xidmətə çağırılmış Zaur Allahverdiyev ulu öndər Heydər Əliyevin "Müstəqil Azərbaycan Respublikasının ordusunda xidmət etmək hər bir azərbaycanlı üçün böyük iftixardır, hər bir Vətən oğlunun şərəfli borcudur. Fəxr etməlisiniz ki, xalqımız sizə bu şərəfli vəzifəni etibar edibdir" sözləri ilə çıxışına başladı və bildirdi ki, Azərbaycan əsgəri adını şərəflə daşıyacaqlar.

Əsgər valideynlərindən Lənkəran şəhər sakini Elman İsrafilova söz verildi. Ordumuzun inkişafına göstərilən diqqət və qayğıya görə Prezident, Ali Baş Komandan İlham Əliyevə və ordu rəhbərliyinə valideynlər adından minnətdarlıq edən əsgər atası gənclərə şərəfli xidmət, xalqımızın ən böyük istəyi olan qələbə sevinci arzuladı.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

***Gənc əsgərlərin hərbi andı qəbul etmələrinə həsr olunmuş mərasim rəsmi ritualların icrası ilə başlandı. Şəxsi heyətin andiçmə mərasiminə düzülməsi barədə komandirə məlumat verildi. Polkovnik-leytenant Nəsrəddin İsgəndərov zabit və əsgərlərlə salamlaşdı. Gənc əsgərləri əlamətdar gün münasibəti ilə təbrik etdi, xidmətlərində uğurlar arzuladı.***



Sonra şəxsi heyət Azərbaycan Respublikasının Dövlət himnini oxudu. Gənc əsgərlər nizami addımlarla sıradan çıxaraq silahlarını sinələrinə sıxıb hərbi andı qəbul etdilər. Mərasimi izləyən valideynlər övladlarına baxıb sevinir, qürur hissi keçirirdilər.

Gənc əsgərlər hərbi andı qəbul etdikdən sonra onları təbrik etmək üçün söz polkovnik-leytenant N.İsgəndərova verildi. O dedi:

- Əziz gənc əsgərlər! Siz həyatınızın əlamətdar günlərindən birini yaşayırsınız. Çox xoşbəxt gənclərsiniz ki, əsasını ümummilli liderimiz Heydər Əliyevin yaratdığı bir ordunun sıralarında xidmət edirsiniz. İnanıram ki, siz təlim-məşqlərdə fəal iştirak edəcək, silahların və hərbi texnikanın sirlərinə dərindən yiyələnəcək, torpaqlarımızı göz bəbəyiniz kimi qoruyacaqsınız. İçdiyiniz hərbi anda həmişə sadiq qalacaq, möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin döyüş əmrinə həmişə hazır olacaqsınız.

Polkovnik-leytenant Məsim Hüseynov general-mayor Qorxmaz Qarayevin gənc əsgərlərə ünvanladığı təbrik məktubunu oxudu.

Əsgər atası Zirəddin Hüseynov çıxış edərək gənc əsgərlərə uğurlar arzuladı.

Gənc əsgərlərdən Azər Qasımov, Cəmil Məmmədov çıxış edərək içdikləri anda sadiq qalacaqlarını, Vətən torpaqlarını göz bəbəkləri kimi qoruyacaqlarını bildirdilər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

***Oğlunu hərbi mundirdə görən ananın baxışlarında sevinc, fərəh də çırpınmadadı, qürrə də, inam da var. Oğlunu tanıya bilməyənlərin narahatlığı sezilməndir. Hamısının baxışı nizami sıraya dikilib. Bir azdan gənc əsgərlərin andiçmə təntənəsi başlanacaq. Həmin anı atalar-analar da səbirsizliklə gözləyir, gənc əsgərlər də. Qardaş görürəm, bacı görürəm, baxışları sırada çətinliklə ayırd elədiyi qardaşının üzündən üzülmür. Kim daha çox həyəcanlanır? - gənc əsgərmi, anamı, atamı, qardaş-bacımı? Şirin həyəcandı...***

Sabir İbrahimov bu həyəcanı dörd il əvvəl yaşayıb. İndi tələbədi. İqtisadçı olacaq. Söhbətləşirik. Düşüncəsi mənə könül xoşluğu verir:

- Hərbi xidmətdə olmağım mənə həyatda bəlkə də ilkin yardımçı oldu. Qardaşım məndən dörd yaş kiçikdir. Məzuniyyətdə olanda hərbi paltarımı geyinib qürrələnir, mən də əsgər olacağam deyirdi. İndi əsgərdi. İnanıram ki, ailəmizin adına o da başucalığı gətirəcək...

Bir ana gördüm. Sevinci seziləndi, duyulandı. Qəribə sevincdi; o qəribə sevincin bənizində bir narahatlıq da hiss edilir.

Gülnaz Nəzərova Daşkəsəndəndi. Sual verməyə macal tapmıram:

- Bir oğlumdu, bir də mənəm. Bir il tənha qalacağam. Ancaq sevinirəm ki, sağlam oğlum var, Vətənə borcunu verəcək. Özü də, mən də el arasına alnıaçıq çıxacağıq. Vətənin dar günündə Samir də xidmət edəcək. Təki torpaqlarımız işğaldan azad edilsin...

Tədbir bir azdan başlayacaq. Bayaqdan bəri diqqətimi çəkən uşaqla kəlmələşmək istəyirəm. İzmir Qubadovdu. Lənkəranın Gizdəm kəndindən. 12 yaşı var. 6-cı sinifdə oxuyur. Qardaşı gənc əsgərdi. "Böyüyəndə nəçi olacaqsan?" soruşuram. Baxışları üzümə dikilir. Tərəddüd etmədən "Əsgər olacam!" deyir. Səsində həsəd var, sevgi var, inam var...

...Hərbi hissənin döyüş bayrağını gətirənlərin mətin yerişini bəlkə də hamı gözlərinə, gözlərindən könlünə köçürmək istəyir.

Azərbaycan Respublikasının Dövlət himni səslənir.



Gənc əsgərlər də, zabitlər də, valideynlər də bu möhtəşəmliyin həm şahidi olur, həm də iştirakçısı. Dövlətçilik atributuna vətəndaş sayğısı ürəyimizi dağa döndərir. Xəyalən əllərim yaz mehindən üzülən yarpaqlarsayağı and içənlərin çiyinlərinə enir. Baxışlarımız əzizlərin baxışlarına dönüb bir-birinə qarışır; bir amalın iki zərrəsi kimi, ümidlə inam kimi. Ürəyimin gözü ilə baxanda bayaqkı uşağı da and içəcək əsgərlərin sırasında görürəm...

Polkovnik Qədir Nəsibov çıxışında qeyd edir ki, bu gün and içən gənc əsgərlər çətin, lakin şərəfli bir vəzifənin icrasına başlayırlar. İnanıram ki, onlar da Vətənə borcunu ləyaqətlə yerinə yetirəcəklər.

Aparılan islahatlar Silahlı Qüvvələrimizin istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının yüksəldilməsini təmin edib. Sevindirici haldır ki, Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Bu gün and içən gənc əsgərlər belə bir ordunun sıralarına daxil olurlar.

Zabit Hümbət Bəndiyev də öz növbəsində gənc əsgərləri, onların valideynlərini bu günün sevincinə görə təbrik edir...

Valideynlər adından çıxış edən Nazxanım Musayeva deyir ki, indi and içən gənc əsgərlərin anaları kimi bu günü mən də gözləyirdim. Şadam ki, böyüdüb tərbiyə verdiyim oğul Vətənə gərəkdir, Vətənə borcunu verəcək. Başımızı uca edəcəyinə inanıram.

Çıxışında gənc əsgərlərə baba tövsiyəsi verən əsgər babası Mirxaliq Ələmov deyir ki, Vətəni qorumaq qədər şərəfli heç nə ola bilməz. Əsgərlər bu məsuliyyəti yaxşı dərk edir. 13 nəvəm var. Səkkiz nəvəm də öz vaxtında Mirsadıq kimi beləcə and içəcək, Vətənin oğlu olacaq. Bu gün and içən əsgərlər komandirlərinin əmr və göstərişlərini sözsüz yerinə yetirməklə bizi də, hərbi hissənin zabitlərini də sevindirəcəklər. Buna mən də əminəm...



Gənc əsgərlər adından Cavid Güləliyev çıxış edir. Əslində, bu çıxış hərbi andın davamı təsiri bağışlayır. O, təntənəyə toplaşanları əmin edir ki, Vətənin arzuladığı əsgər olacaq, bunun üçün öyrədilənləri səylə mənimsəyəcək, texnika və silahları mükəmməl öyrənəcək, Ali Baş Komandanın, Müdafiə nazirinin bütün əmr və göstərişlərini yüksək əzmkarlıqla, Azərbaycan əsgərinin adına layiq şəkildə yerinə yetirəcəyik...

Gənc əsgərlərin baxışlarında çiçəkləyən sevinc sanki dil açır: "Mən də əsgərəm, ana!.."...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

Məsul katib
polkovnik-leytenant
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
mayor
Bəxtiyar ƏLİYEV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 290
Nüsxə 4600